# BDU-da "İlin alimi" nomainasiyasına həsr olunmuş tədbir keçiriləcək




Son illər Bakı Dövlət Universiteti hər il mart ayında keçirilən “Elm Günü” münasibəti ilə ilin alimi nominasiyası üzrə müsabiqənin yekununu elan edir. Dəqiq elmlər və təbiət elmləri ilə yanaşı sosial-humanitar elmlər üzrə də Bakı Dövlət Universitetinin ayrı-ayrılıqda alimlərinin elmi nailiyyətləri qiymətləndirilir, elan olunur. Universitetin akademik mühitində rəğbət qazanmış bu təcrübə yəqin ki, respublikanın digər universitetlərində də tətbiq olunacaq.



## Elmin inkişafı Azərbaycanda dövlət siyasətinin prioriteti kimi

BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti

**Pərviz Kazimi**

*10 mart 2025-ci il*

*12:00*

*2 saylı tədris binası,*
*307 saylı auditoriya*

BDU-nun hər il ilin alimi adını qazanmış müəllimləri növbəti illərdə elmi seminarlar təşkil edərək geniş akademik mühitdə mütəmadi çıxışlar edirlər. Bu ilin mart ayının 5-və pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İsmayılov "Sənəd menecmenti üzrə tədqiqatların elmmetrik təhlili" mövzusunda, Tarix üzrə fəlsəfə doktoru, dosent Pərviz Kazimi mart ayının 10-da, "Elmin inkişafı Azərbaycanda dövlət siyasətinin preoriteti kimi" mövzusunda universitet alimləri qarşısında çıxış edəcək. Qeyd olunan alimlər 2024-cü ildə BDU-nun ilin alimi nominasiyasının qalibləri olublar.




Mart ayının sonunda bu ilin qalibləri elan ediləcək.

***Pərviz Kazimi, dosent***